# Ulus olmaq yetkin fərdlərdən başlayır...



**İşıqlı Atalı**

*Ulus (Xalq) olmaq nadir olaydır. Hər Ulus tarix səhnəsində qala bilmir. Ona görə ki, ulusallıq ardıcıl yaradıcılıqdır, arxayınlaşmamaqdır. Bu gün qədim çağların hər mənada qüdrətli sayılan dövlətlərinin çoxu yoxdur, habelə o keyfiyyətlərin təsdiqi olan ulusların dünyadakı yeri öncəki kimi deyil. Ancaq yenə də öncəki kimi varlığını qoruyub saxlayan uluslar, həmin özüldə varlığını sürdürən dövlətlər var.*

*Mahiyyətcə ulusallıq – İnsanlığa əsaslanır, əsaslanmalıdır. Gerçəklikdəki uyğunsuzluqlar hamının gördüyüdür: tarixdə bu və ya başqa ölçüdə özünü göstərib, şübhəsiz, burada insanlıq, ulusallıq ölçüsünə əsaslanmaq məsələsində inad etmək olmur; bəşər tarixi əslində daha çox qan-qada tarixidir.*

*Bu gün dünyadakı proseslər başdan-başa öncəki kimi gərginliklərlə doludur. Hər gün, hər saat əsəbi, halsız ilişgilər daha çox üstünlük təşkil edir. Ölkələrin tarixi, halı adamların bir-birləri ilə ilişgilərinə oxşayır.*

*Gerçəkdən belədir, adam halı necədirsə, ölkələrin də halı odur. Bəs bu gediş necə olacaq? Dünyadakı gərginliklər arta-arta getdiyi bir çağda sabah elə bu günə oxşamayacaqmı? Əlbəttə, İnsanlığa əsaslanma tam olmayınca, mahiyyətcə heç nə dəyişməyəcək.*

*Bu gedişi Ulus (Xalq) adlı ruhsal olay nizamlaya bilər. İnsanların Sabaha, özünə yanaşması yaradıcı, insani olduğu dərəcədə Ulusların, dövlətlərin də sabahı ağgünlü ola bilər. Əlbəttə, bu, çağımızdan baxdıqda ən yaxşı halda xəyal olaraq qarşılana bilər. Hər halda özümüzə, İnsanlığımıza ümidimiz varsa, deməli, ruhdan düşmək olmaz.*

*İnsanlıq ümidi bizi yaşadar, var edər.*

*İnam Atanın (Asif Atanın) Mütləqə İnam Dünyabaxışında mahiyyətcə İnsanın varoluşu - Ulusun varoluşu deməkdir.*

*İnsan özünün şəxsində Ulusu təsdiq edəndir.*

*Qədimlikdən üzü bəri yaşananları özündə mahiyyət ölçüsündə birləşdirən Ulus adlı dəyər hər birimiz üçün yerində saymayan, ardıcıl insanlıq, ulusallıq özülü üstə gəlişməli olan ruhsal olaydır.*

*Ulus olayı yetkin bir hal oluşdurur – Bəşərin mahiyyətini özündə daşıyır, əlvanlığı təsdiq edir. Fərddən Ulusa, Ulusdan da Bəşərə yol var – bunun kökü İnsanın içindən başlayır, İnsanla ard edir, bitmir, tükənmirg*

*Atanın Dünyabaxışı İnsanın varoluşunu bayramlaşdırır, Dünyanı, Həyatı, İnsanı, Doğanı (Təbiəti) mahiyyət ölçüsündə anladır. Dərk olunan Mahiyyətin – Mütləqin, Mənanın İnsanda olmasına İnam, İnsanın Mütləqləşmək imkanının car olunması, bu əsasda yaşam İnsanlığın bayram olunmasına ciddi, bənzərsiz əsas verir. İnsan İnsanlığına yetə bilmək imkanını anlayır, o gözəllikləri fitrətən ağlında, davranışlarında daşıyır, bunu bayramlaşdırır, başqasıyla, başqalarıyla ruhən bir olduğunu, bir olmaq imkanını duyur, görür.*

*Bu imkanların gələcəkdə daha da fərəhli aşkarlanacağına inanmağın qaynağı İnsanın içidir. Bu gün İnsan hər vəchlə özündən ayrılır, hər cür Ruhuna yad ilişgilər onu özündən ayırmağa hesablanır. Özünə yad olan İnsan başqasıyla bir ola bilmir, bu, Ulusallıq imkanının aşkarlanmasına qarşıdır. Ulusal ola bilməyən, bu duyğunu özündə daşıya bilməyənlərin ağlında, davranışında var olmaq keyfiyyəti yaranmır, yaranmaz.*



*Deməli, ulusallıq (xəlqilik) insani, bəşəri dəyərdir, onun gözəlliklərinin aşkarlanması isə heç vaxt bitməyəcək ardıcıl əməldir.*

*İnam Ata (Asif Ata) yazır: “Mahiyyət gerçəklikdən üstündür. İnsanın mütləqləşmək – var olmaq imkanı var”.*

*İndiyə kimi bəşər tarixində İnsanlıq, Ulusallıq bayram edilməyib. Habelə Atanın yaratdığı Şərqiliyin, Bəşəriliyin də bayram olaraq qeyd edilməsi sabah üçün zəngin mənəvi sərvət imkanıdır.*

*Dünyada İnsansızlığın daha da artdığı, hər cür inkişafın mahiyyətcə İnsanlığı təsdiq etmədiyi bir çağda İnsanlığın, Ulusallığın bayram edilməsi imkanı ciddi mənəvi olaydır.*

*Ulus (Xalq) sabahımızda bu yetkin özüldə var ola bilər.*

*Ulusallıq (Xəlqilik) bayramı bizi İnsan, Ulus olaraq var edər, Özümlüyümüzə qovuşdurar.*

*Atanın Ulus (Xalq) qonusunda fikirlərini sunuram.*

*SAYĞIYLA: İŞIQLI ATALI*

*****

## İnam Ata (Asif Ata)

## Xalq

***Xalq ruhani xilqət olduğundan kamildir, əbədidir, sonsuzdur.***

***Bu səbəbdən də o, fərdlərin adi cəmi deyil, yalnız məkan birliyinə əsaslanan birlik deyil, keçici hadisə deyil.***

***Bu səbəbdən də xalq həyatı hadisəsi var.***

***Xalq mənəviyyatı hadisəsi var.***

***Xalq idealı hadisəsi var.***

***Xalq idrakı hadisəsi var.***

***Xalq ölməzliyi hadisəsi var.***

***Xalq həyatı – ruhaniliyi, Mütləqi ifadə edən həyatdır.***

İnsanların daxili dünyasında Mütləq ideyası yarananda xalq yaranır.

Həmin ideya xəlqi birliyi təsdiq edir.

Birlik cismani, bəsit, maddi keyfiyyət kimi yox, müqəddəs, əbədi, əvəzsiz keyfiyyət kimi təzahür edir. Maddi birlik əsasında xalq yox, insan cəmi peyda olur. Çünki burada həmin cəmi müqəddəsləşdirən ruhanilik yoxdur.

Birlik maddi faydalığa əsaslananda xalq yaranmır.

Birlik – müqəddəsliyi, ruhaniliyi ifadə edəndə, insanların mənəvi aləmində yaşayan Mütləqə can atmaq duyğusunu aşkara çıxaranda, fərdlər arasında ülvi əlaqələr bərqərar olanda – xalq yaranır.

Bir sözlə, birlik insanın əlamətini yox, mahiyyətini, ölümlüyünü yox, ölümsüzlüyünü, keçiciliyini yox, əbədiliyini təsdiq edəndə – xalq yaranır.

Həmin varlıqda fərdlərə xas olan ruhani məna hərtərəfli və parlaq şəkildə aşkara çıxır.

Xəlqi birlikdə insanlar sadəcə bir yerdə yaşamırlar, bir tərzdə yaşayırlar.

Bir tərzdə yaşamaq o zaman zəruri olur ki, o, insanların dərin ruhani tələblərini ödəsin.

Bir sözlə, xalq həyatı Mütləqi təsdiq edən birlikdir.

Bu səbəbdən də o, müqəddəsdir, yəni qeyri-adi dərəcədə qiymətli, xeyirli, zəruridir.

Bu səbəbdən də o, özündə ölümsüzlüyü, kamilliyi və sonsuzluğu yaşadır.

Bu səbəbdən də burada maddiyyat ruhaniləşir.

Xalq mənəviyyatı Mütləqin tələbinə uyğun özünü kamilləşdirmə ehtiyacının təzahürüdür.

Mənəviyyatlı xalq – qeyrətli xaqldır, qorxu duyğusu üzərin¬də qələbə çalmış xalqdır. Həm də qeyrəti həyati imperativə çevirən xalqdır. Nəticə etibarı ilə Mütləqə yanaşan, Mütləqlə yaşayan xalqdır.

Mənəviyyatlı xalq – ümumini təsdiq edən, fərdi ümumiyə tabe edən, nisbini Mütləqə tapşıran və bununla da Mütləqi təsdiq edən xalqdır. Müstəqilliyi hifz etmək – əslində Mütləqiliyi hifz etməkdir. Çünki müstəqillik Mütləqiliyin ifadəsidir. Mənəviyyatlı xalq – azadlıqsevər xalqdır. Azadlığı sevmək – Mütləqi sevməkdir, çünki azadlıq Mütləqin ifadəsidir. Çünki əslində yalnız ruhani olan azaddır. Sonlu, keçici, ölümlü – qeyri-azaddır. Azadlığı sevmək – xəlqi birliyin ruhani mahiyyətini sevməkdir. Mənəviyyatlı xalq – tarixi, qədimliyi sevən xalqdır. Qədimliyi sevmək – əbədiliyi sevmək¬dir. Əbədiliyi sevmək – ruhaniliyi təsdiq etməkdir.

Mənəviyyatlı xalq – insansevər, xeyirsevər, gözəlliksevər xalqdır.

***Xeyiri sevmək – Mütləqi sevməkdir.***

***İnsanı sevmək – Mütləqi sevməkdir.***

***Gözəlliyi sevmək – Mütləqi sevməkdir.***

***Şərə nifrət bəsləmək – Mütləqi sevməkdir.***

***Eybəcərliyi rədd etmək – Mütləqi sevməkdir.***

***Mənəviyyatlı olmaq – Mütləqli olmaqdır.***

***Xalq idealı xeyirin və ədalətin – xalq həyatının mənasına çevrilməsidir.***

***Bu baxımdan, xalq ideal vasitəsiylə Mütləqə yüksəlir, idealı təsdiq etməklə yaşayan Mütləqlə vəhdət ehtirasını təsdiq etmiş olur.***

***Nisbi xeyir – xeyir deyil, nisbi ədalət – ədalət deyil.***

***Mütləqilik – xeyirin, ədalətin əsas xüsusiyyətidir.***

***Bu baxımdan, idealda xalq Mütləqi təsdiq edir.***

***O, həm də bəşərin Mütləq mahiyyətini ifadə edir.***

Xalqın ideal saydığı, can atdığı xeyir sonsuzdur, əbədidir, kamildir. Bu səbəbdən də onu həyata keçirməyə can atan xalq öz gerçək imkanlarından kənara çıxır, bir vəziyyətdə dayanmır, artır, böyüyür, müqəddəsləşir, Mütləqə yaxınlaşmağa səy edir. Ədalət əbədidir, sonsuzdur, kamildir, nöqsansızdır, bu cəhətdən onu həyata keçirməyə çalışan, ona can atan xalq özündə qalmır, Mütləqə yüksəlməyə can atır.

Xeyiri, ədaləti həyatının mənasına çevirməklə, xalq ölməzlik qazanır.

Xalq ölmür, çünki həyatını ölməzliyə həsr edir.

Xeyir, ədalət ölməz olduğundan, onlara həsr olunan həyat da ölməzdir.

Bu nöqteyi-nəzərdən, xalq həm də bəşəriyyətin ifadəsidir. Xalqdan və xalqlardan kənar bəşər yoxdur. Bəşərdə ali, yüksək, böyük, möhtəşəm nə varsa, xalqda aşkara çıxır.

Bəşər adlanan toxum özünü xalq adlanan bitkidə təsdiq edir. Bitki yoxdursa, deməli toxum ölüb.

Xalqlardan təcrid olunmuş bəşər – ölü toxumdur. Bəşəriyyətin salamatlığı xalqın salamatlığıdır.

Xalqsız bəşəriyyət – ölü bəşəriyyətdir.

“Xeyiri, ədaləti bəşəriyyət bir cür, konkret xalq isə başqa cür ifadə edir” – fikrində ciddi yanlışlıq var.

Əslində bəşər Mütləq sərvətləri yalnız və yalnız xalq vasitəsilə təsdiq edir, Bəşər öz idraki qabiliyyətini xalqlar arasında hissə-hissə paylamır, o, xalqda öz keyfiyyətlərini bütöv şəkildə büruzə verir. Bu cəhətdən xalq ilə bəşər arasında elə bir fərq yoxdur.

Xalq elə bəşərdir. Bəşər elə xalqdır. Buna görə də xalq idealı həm də bəşər idealıdır.

Hər ikisində ruhanilik təsdiq olunur. Xalq idrakı həqiqəti dərk etməyə can atır, həqiqət – Mütləq səciyyəlidir.

Nisbi həqiqət – həqiqət deyil.

Qeyri-kamil həqiqət – həqiqət deyil.

Sonlu həqiqət – həqiqət deyil.

Xalq həqiqəti dərk etməyə can atmaqla ölümsüzlüyə, sonsuzluğa, kamilliyə can atır, ölümlülük, sonluluq, qeyri-kamilliklə barışmır, özünün gerçək vəziyyətindən kənara çıxır.

Mütləqi nisbi qabiliyyətlə dərk etmək olmaz. Bu səbəbdən xalq öz idraki fəaliyyətini təkmilləşdirməli olur. Mütləqi dərk etmək – həm də nisbi mövcudluqla barışmamaq, Mütləq mövcudluğa ucalmaq tələb edir.

Mütləq idrak – Mütləq mövcudluq istəyir.

Xalq həyatının ən dramatik xüsusiyyəti ondan ibarətdir ki, öz mahiyyəti etibarı ilə Mütləq, sonsuz, əbədi, kamil olan xalq sonlu şəkildə təzahür edib.

Xalq indiyə qədər mahiyyətdən aşağı yaşayıb, onun gerçəkliyi mahiyyətinə bərabər olmayıb. Bir çox hallarda o, özünü mahiyyətinin ziddinə realizə edib.

Xalq həyatında sonlu, qeyri-kamil hadisələr çox vaxt əbədi hadisələri üstələyib, yaradılan dövlətlərin, səltənətlərin çoxu məhv olub, səpilən toxumun çoxu bitməyib, nifrət məhəbbətə, bəsitlik müqəddəsliyə qənim olub, qüdrət, qeyrət, ülfət nisbi səciyyə daşıyıb, qorxu, həsəd, nadanlıq ləyaqətin üzərinə kölgə salıb, xalislər təhqir olunub, naqislər sevinib, xalq zora əyilib, yalana tapınıb.

***Xalq mənəviyyatında ülviyyətlə qəbahət, gözəlliklə eybəcərlik birgə yaşayıb, xalq daxilindəki naqisliyi öldürə bilməyib, maddiyyat mənəviyyata qalib gəlib.***

***Xalq gerçəkliyə pərçimlənib qalıb, ideal əsasında yox, təmənna əsasında yaşayıb, müqəddəslikdən ayrılıb, öz mahiyyəti səviyyəsinə yüksəlməyib, xalq çox hallarda nisbi həqiqətlə kifayətlənib, onunla barışıb, ona uyub, pənah gətirib. Xalq öz ölməzliyini çox vaxt dərk etməyib, bu səbəbdən də özünə layiq yaşamayıb, keçici hadisələrə, xassələrə, keyfiyyətlərə tapınıb, böyüyü kiçikdən, alini alçaqdan seçə bilməyib, özündən aşağı mövcud olub.***

***Xalq hələlik nisbi mənada özünü tanıyıb, nisbi mənada tanıdıb, nisbi mənada dərk edib, nisbi mənada yaradıb, nisbi mənada inanıb.***

***O, öz mahiyyətinə layiq yaşamayıb, Mütləq mahiyyət nisbi əlamətlər şəklində təzahür edib.***

***Bu səbəbdən də xalq Mütləq mənada hələ yaşamayıb.***